# BƏNI İSRAIL ALIMLƏRININ XƏBƏRDAR OLMASI

<"xml encoding="UTF-8?>

BƏNI İSRAIL ALIMLƏRININ XƏBƏRDAR OLMASI

Quranın sonuncu Peyğəmbərin risalət və nübüvvətinə olan möhkəm dəlillərdən biri Bəni İsrail alimlərinin Quranın gələcəkdə nazil olmasından qabaqcadan agah .və xəbərdar olmasıdır

Həqiqətən, o (Quranın nazil olacağı xəbəri, mənası və hökmləri; Peyğəmbərin" vəsfi), əvvəlkilərin (keçmiş peyğəmbərlərin) kitablarından mövcuddur." "Məgər İsrail övladı alimlərinin (Quranın ilahi kitab, sənin həqiqi peyğəmbər olduğunu) [bilmələri onlar (bu kafirlər) üçün bir dəlil (sübut) deyilmi? [1

Bu ayələrin mənası budur ki, Bəni israil alimləri sonuncu Peyğəmbərin nübüvvətlik mövzusunu keçmiş ilahi Peyğəmbərlərin kitablarında görübdürlər və Peyğəmbər (s) Peyğəmbərliyə yetişdikdən qabaq onu müşriklərə bəyan ediblər, necə ki, başqa bir ayədə gəlmişdir ki, Bəni israil alimləri müşrikləri sonuncu Peyğəmbər :gəldikdən sonra onlardan intiqam alacaqlarıyla təhdid edirdilər

Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Quran)" göndərildiyi zaman (onu qəbul etmədilər). Halbuki əvvəlcə (Muhəmməddən qabaq) kafirlərə (ərəb müşriklərinə) qələbə çalmaq üçün ("Tövratda adı çəkilən axirüzzəman peyğəmbər gəlib bizə yardım edəydi!" - deyə Allaha) yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə, (paxıllıq edib) ona inanmadılar. Allah kafirlərə [lənət eləsin!"[2

Allah tərəfindən onlara əllərindəkini (Tövratı) təsdiq edən bir peyğəmbər gəldikdə" kitab verilənlərdən (yəhudilərdən) bir qismi (Tövratda Muhəmməd əleyhissəlamın həqiqi peyğəmbər olduğu barədə deyilənləri) guya bilmirmiş kimi, Allahın kitabına

[arxa çevirdi."[3

Məlumdur ki, Bəni İsrail alimləri müşriklərin kənarında olduğu bir mühitdə mümkün deyil ki, Quran boş yerdə belə bir iddianı irəli sürsün. Çünki, əgər bu iddia düz olmazsa hər bir tərəfdən, həm Bəni israil alimləri və həm müşriklər tərəfdən belə bir iddianın düz olmaması səs- küyü qalxacaqdır. Bu özü də bunu göstərir ki, bu mövzu Quran nazil olan zamanda o qədər aşkar imiş ki, inkar etməyə heç bir .yer və heç bir bəhanə qalmamışdır

Yəhudi və Xristian alimlərinin bu böyük Peyğəmbərin göndərilməsinə agah olmalarından əlavə onlardan bir qurup bu Peyğəmbərin səmavi kitablarda göndəriləcək müjdəsi verilən Peyğəmbər olduğuna istinad edərək Peyğəmbərin .(s) zamanında ona iman gətirdilər

Elmin şəhadəti

Quran və hədis baxımından, elmlə tövhid və nübüvvətə iman gətirmək arasında ayrılmaz bir sıx əlaqə mövcuddur. Həqiqi alim odur ki, sonuncu Peyğəmbərin :risalətini və sədaqətini təsdiq etsin

Kitab əhlindən Abdullah ibn Salam kimi) elm verilmiş kimsələr Rəbbindən sənə)" nazil edilənin (Quranın) haqq olduğunu və onun (möminlərə) yenilməz qüvvət [sahibi, (hər cür) şükrə (tərifə) layiq olan Allahın yolunu göstərdiyini görürlər."[4

Bu barədə Peyğəmbəri- əkrəm (s)- dən rəvayət olunur: "Elm islamın həyatı və [imanın sütunudur".[5

Amma İslamın həyatı olan və imanın sütunu olan elmin hansı elm olduğu sualının .cavabı bu kitabın mətnində açıqlanacaqdır

Mütəal Allahın hökmü

Allah Peyğəmbərinin nübüvvətini isbat etmək üçün Qurani- kərimin yolu birinci növbədə dəlil və bürhana istinad etməkdir. Əgər müqabil tərəf aşkar dəlillərin

bərabərində insafsızlıq edib, haqqa təslim olmazsa, ikinci növbədə onları mübahiləyə dəvət edir. Mübahilə iki nəfərin hər biri öz iddiasını sübuta yetirmək üçün bir- birinə nifrin və qarğış etmələridir. Belə ki, onlar aralarında olan ixtilaflı məsələ barəsində bir yerə toplaşıb və Allahın dərgahında sızıldayaraq ondan istəyirlər ki, yalaçını rüsva edib, cəzalandırsın. Bu addım həqiqətdə Mütəal Allahdan onların hər birini öz iddialarında təsdiq və təkzib etmək üçün, hakimlik .istəməkdir

Mütəal Allah öz Peyğəmbərinə göstəriş verir ki, öz sədaqətini isbat etmək üçün .Nəcran nəsranilərilə danışıq apararkən, onları bu tərtiblə mübahiləyə dəvət etsin

İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən)" (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua [edib yalançılara Allahın lənət etməsini diləyək!"[6

Şübhəsiz Ayədə bəyan edilən şəkildə mübahiləyə dəvət etmək nübüvvət iddası edən şəxsin sədaqətindən xəbər verir; əgər bir şəxs öz iddasının düzgün olmasına yəqini olmazsa, mümkün deyil ki, öz müxaliflərini belə bir mübahiləyə çağırsın ki, gəlin Allahı hakim edək ki, yalançını rüsva etsin və siz elə bu dua məclisində !Allahın hakimiyyətinin nəticəsini və yalançının cəzalanmasını görəcəksiniz

Məlumdur ki, belə bir meydana onun nəticəsinə yəqin etmədən daxil olmaq heç bir məntiq və ağıla uyğun deyil. Çünki, əgər iddia edənin duası və istəyi cavablandırılmasa və müxalif cəzalandırılmasa, iddia edən şəxs özü rüsva olacaqdır. Bu səbəbdən məsihilərə təklif edilən mübahilə, hələ onun nəticəsini də nəzərə almasaq şübhəsiz ki, İlahi Peyğəmbərin öz risalət iddiasında olan .sədaqətini bildirir

Peyğəmbəri- əkrəm (s) tərəfindən Nəcran məsihilərinə verilən bu mübahilə təklifindən sonra, Nəcran məsihilərinin nümayəndələri bu təklifə cavab vermək

üçün onlardan möhlət istədilər ki, öz böyükləri ilə bu barədə müşavirə edib məsləhət alsınlar. Onların bu müşavirə və məsləhətləşmələrinin nəticəsi psixoloji baxımdan elə bir mühüm məsələdir ki, nübüvvət iddiası edənin düz olub .olmamasını bəyan edir

Qərara gəldilər ki, mübahilə məclisində iştirak etsinlər, və görsünlər ki, Peyğəmbərin (s) mübahilə üçün gələn yoldaşları kimlərdir və o, kimləri Allah cəzasına məruz qoymağa hazırlayıbdır. Onlar özlərinə dedilər. "Əgər öz qövmü ilə bizimlə mübahiləyə gələrsə, Peyğəmbər deyil və onunla mübahilə edərik. Amma təkcə öz ailə üzvlərini bizimlə mübahilə etməyə gətirərsə, onunla mübahilə etməyəcəyik; çünki heç bir şəxs öz iddiasında düz olmazsa öz ailə özvlərini [mübahiləyə gətirməz."[7

Qabaqcadan ünvanladıqları qərargaha gəldilər. Birdən gördülər ki, Allahın Peyğəmbəri öz qızı Fatimə (s), kürəkəni Əli (ə) və iki kiçik nəvəsi ilə (Həsən (ə) və Hüseyn (ə)) mübahilə meydanına gəlibdir. Onlar İlahi Peyğəmbərin sədaqətindən xəbər verən belə bir səhnəni görərkən dəhşətə gəlib mübahilə etməkdən boyun qaçırdılar və Peyğəmbər (s)- lə sülh etmək və zimmə şərtlərinə boyun qoymağa [məcbur oldular.[8

---

Şüəra surəsi, ayə 196- 197 – [1]

Bəqərə surəsi, ayə 89 – [2]

Bəqərə surəsi, ayə 101 – [3]

Səba surəsi, ayə 6 – [4]

Kənzül- ümmal, cild 10, səh 181 – [5]

Ali İmran surəsi, ayə 61 – [6]

Təfsiri Qumi, cild 1, səh 104 - [7]

Təfsiri Qumi, cild 1, səh 104 - [8]

## BƏNI İSRAIL ALIMLƏRININ XƏBƏRDAR OLMASI

Quranın sonuncu Peyğəmbərin risalət və nübüvvətinə olan möhkəm dəlillərdən biri Bəni İsrail alimlərinin Quranın gələcəkdə nazil olmasından qabaqcadan agah .və xəbərdar olmasıdır

Həqiqətən, o (Quranın nazil olacağı xəbəri, mənası və hökmləri; Peyğəmbərin" vəsfi), əvvəlkilərin (keçmiş peyğəmbərlərin) kitablarından mövcuddur." "Məgər İsrail övladı alimlərinin (Quranın ilahi kitab, sənin həqiqi peyğəmbər olduğunu) [bilmələri onlar (bu kafirlər) üçün bir dəlil (sübut) deyilmi? [1

Bu ayələrin mənası budur ki, Bəni israil alimləri sonuncu Peyğəmbərin nübüvvətlik mövzusunu keçmiş ilahi Peyğəmbərlərin kitablarında görübdürlər və Peyğəmbər (s) Peyğəmbərliyə yetişdikdən qabaq onu müşriklərə bəyan ediblər, necə ki, başqa bir ayədə gəlmişdir ki, Bəni israil alimləri müşrikləri sonuncu Peyğəmbər :gəldikdən sonra onlardan intiqam alacaqlarıyla təhdid edirdilər

Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Quran)" göndərildiyi zaman (onu qəbul etmədilər). Halbuki əvvəlcə (Muhəmməddən qabaq) kafirlərə (ərəb müşriklərinə) qələbə çalmaq üçün ("Tövratda adı çəkilən axirüzzəman peyğəmbər gəlib bizə yardım edəydi!" - deyə Allaha) yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə, (paxıllıq edib) ona inanmadılar. Allah kafirlərə [lənət eləsin!"[2

Allah tərəfindən onlara əllərindəkini (Tövratı) təsdiq edən bir peyğəmbər gəldikdə" kitab verilənlərdən (yəhudilərdən) bir qismi (Tövratda Muhəmməd əleyhissəlamın həqiqi peyğəmbər olduğu barədə deyilənləri) guya bilmirmiş kimi, Allahın kitabına [arxa çevirdi."[3

Məlumdur ki, Bəni İsrail alimləri müşriklərin kənarında olduğu bir mühitdə mümkün deyil ki, Quran boş yerdə belə bir iddianı irəli sürsün. Çünki, əgər bu iddia düz olmazsa hər bir tərəfdən, həm Bəni israil alimləri və həm müşriklər tərəfdən belə bir iddianın düz olmaması səs- küyü qalxacaqdır. Bu özü də bunu göstərir ki, bu mövzu Quran nazil olan zamanda o qədər aşkar imiş ki, inkar etməyə heç bir .yer və heç bir bəhanə qalmamışdır

Yəhudi və Xristian alimlərinin bu böyük Peyğəmbərin göndərilməsinə agah olmalarından əlavə onlardan bir qurup bu Peyğəmbərin səmavi kitablarda göndəriləcək müjdəsi verilən Peyğəmbər olduğuna istinad edərək Peyğəmbərin .(s) zamanında ona iman gətirdilər

Elmin şəhadəti

Quran və hədis baxımından, elmlə tövhid və nübüvvətə iman gətirmək arasında ayrılmaz bir sıx əlaqə mövcuddur. Həqiqi alim odur ki, sonuncu Peyğəmbərin :risalətini və sədaqətini təsdiq etsin

Kitab əhlindən Abdullah ibn Salam kimi) elm verilmiş kimsələr Rəbbindən sənə)" nazil edilənin (Quranın) haqq olduğunu və onun (möminlərə) yenilməz qüvvət [sahibi, (hər cür) şükrə (tərifə) layiq olan Allahın yolunu göstərdiyini görürlər."[4

Bu barədə Peyğəmbəri- əkrəm (s)- dən rəvayət olunur: "Elm islamın həyatı və [imanın sütunudur".[5

Amma İslamın həyatı olan və imanın sütunu olan elmin hansı elm olduğu sualının .cavabı bu kitabın mətnində açıqlanacaqdır

Mütəal Allahın hökmü

Allah Peyğəmbərinin nübüvvətini isbat etmək üçün Qurani- kərimin yolu birinci növbədə dəlil və bürhana istinad etməkdir. Əgər müqabil tərəf aşkar dəlillərin bərabərində insafsızlıq edib, haqqa təslim olmazsa, ikinci növbədə onları

mübahiləyə dəvət edir. Mübahilə iki nəfərin hər biri öz iddiasını sübuta yetirmək üçün bir- birinə nifrin və qarğış etmələridir. Belə ki, onlar aralarında olan ixtilaflı məsələ barəsində bir yerə toplaşıb və Allahın dərgahında sızıldayaraq ondan istəyirlər ki, yalaçını rüsva edib, cəzalandırsın. Bu addım həqiqətdə Mütəal Allahdan onların hər birini öz iddialarında təsdiq və təkzib etmək üçün, hakimlik .istəməkdir

Mütəal Allah öz Peyğəmbərinə göstəriş verir ki, öz sədaqətini isbat etmək üçün .Nəcran nəsranilərilə danışıq apararkən, onları bu tərtiblə mübahiləyə dəvət etsin

İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən)" (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua [edib yalançılara Allahın lənət etməsini diləyək!"[6

Şübhəsiz Ayədə bəyan edilən şəkildə mübahiləyə dəvət etmək nübüvvət iddası edən şəxsin sədaqətindən xəbər verir; əgər bir şəxs öz iddasının düzgün olmasına yəqini olmazsa, mümkün deyil ki, öz müxaliflərini belə bir mübahiləyə çağırsın ki, gəlin Allahı hakim edək ki, yalançını rüsva etsin və siz elə bu dua məclisində !Allahın hakimiyyətinin nəticəsini və yalançının cəzalanmasını görəcəksiniz

Məlumdur ki, belə bir meydana onun nəticəsinə yəqin etmədən daxil olmaq heç bir məntiq və ağıla uyğun deyil. Çünki, əgər iddia edənin duası və istəyi cavablandırılmasa və müxalif cəzalandırılmasa, iddia edən şəxs özü rüsva olacaqdır. Bu səbəbdən məsihilərə təklif edilən mübahilə, hələ onun nəticəsini də nəzərə almasaq şübhəsiz ki, İlahi Peyğəmbərin öz risalət iddiasında olan .sədaqətini bildirir

Peyğəmbəri- əkrəm (s) tərəfindən Nəcran məsihilərinə verilən bu mübahilə təklifindən sonra, Nəcran məsihilərinin nümayəndələri bu təklifə cavab vermək üçün onlardan möhlət istədilər ki, öz böyükləri ilə bu barədə müşavirə edib

məsləhət alsınlar. Onların bu müşavirə və məsləhətləşmələrinin nəticəsi psixoloji baxımdan elə bir mühüm məsələdir ki, nübüvvət iddiası edənin düz olub .olmamasını bəyan edir

Qərara gəldilər ki, mübahilə məclisində iştirak etsinlər, və görsünlər ki, Peyğəmbərin (s) mübahilə üçün gələn yoldaşları kimlərdir və o, kimləri Allah cəzasına məruz qoymağa hazırlayıbdır. Onlar özlərinə dedilər. "Əgər öz qövmü ilə bizimlə mübahiləyə gələrsə, Peyğəmbər deyil və onunla mübahilə edərik. Amma təkcə öz ailə üzvlərini bizimlə mübahilə etməyə gətirərsə, onunla mübahilə etməyəcəyik; çünki heç bir şəxs öz iddiasında düz olmazsa öz ailə özvlərini [mübahiləyə gətirməz."[7

Qabaqcadan ünvanladıqları qərargaha gəldilər. Birdən gördülər ki, Allahın Peyğəmbəri öz qızı Fatimə (s), kürəkəni Əli (ə) və iki kiçik nəvəsi ilə (Həsən (ə) və Hüseyn (ə)) mübahilə meydanına gəlibdir. Onlar İlahi Peyğəmbərin sədaqətindən xəbər verən belə bir səhnəni görərkən dəhşətə gəlib mübahilə etməkdən boyun qaçırdılar və Peyğəmbər (s)- lə sülh etmək və zimmə şərtlərinə boyun qoymağa [məcbur oldular.[8

---

Şüəra surəsi, ayə 196- 197 - [1]

Bəqərə surəsi, ayə 89 - [2]

Bəqərə surəsi, ayə 101 - [3]

Səba surəsi, ayə 6 - [4]

Kənzül- ümmal, cild 10, səh 181 - [5]

Ali İmran surəsi, ayə 61 - [6]

Təfsiri Qumi, cild 1, səh 104 - [7]

Təfsiri Qumi, cild 1, səh 104 - [8]